Bizim nəsil onu daha çox filmlərdən tanıyır... "Əhmədin anası ölməyib" deyən hökmlü Nərgiz xalanı ("Əhməd haradadır?") kim sevmir? 38-39 yaşlı aktrisa Nərgiz xala obrazını o qədər dolğun, ürəyə yatımlı yaratmışdı ki,tamaşaçı obrazla aktrisa arasındakı yaş fərqini seçə bilmirdi.

Nəcibə Məlikovanın "Fətəli xan"da Xədicəsi, "Arşın mal alan"da Cahanı, "Ögey ana"da Dilarəsi, "Aygün"də Aygünü haqqında geniş söhbət açılmağa layiq obrazlardır. Bəli, bizim nəsil onu filmlərdən tanıyır. Ancaq... Nəcibə xanımın bir aktrisa kimi bütün həyatı teatra bağlı idi. Onun sənətə gəlişi 40-cı illərə təsadüf edir. O, rolu oynamaqla işini bitmiş hesab etmirdi. Tamaşadan-tamaşaya yeni axtarışlar aparırdı. İsmayıl Dağıstanlı: "Nəcibə xanım rol üzərində çox qəribə işləyir." Tamaşa təhvil verildən sonra da arxayın olmur. Yaratdığı obrazın taleyi onu narahat edir. Səhnə fəaliyyətinə Gəncə Dövlət Dram Teatrından başlayan N. Məlikovanın aktyor həyatının əsas hissəsi Azərbaycan Dövlət Milli Dram teatrı ilə bağlıdır. Bu teatrın səhnəsində o, müxtəlif səpgili obrazlar yaratmışdır.

"Əliqulu evlənir" tamaşasında Nəcibə Məlikova ilə tərəf-müqavili olmuş xalq artisti Həsənağa Turabov onun dəyişməz xarakterli insan olduğunu qeyd edirdi. Nəcibə xanım istər gənc, istər yaşlı aktrisa olsun hamının hörmətini saxlayırdı. Bu köməyi, qayğını həmin dövrdə daha çox duyanlar teatra təzə gələn gənclər idi. O illəri xatırlayan xalq artisti Bəsti Cəfərova Nəcibə xanımın əvəzsiz insan olduğunu deyir: "Əsl Azərbaycan xanımı deyəndə mən Nəcibə xanımı düşünürəm , sözün həqiqi mənasında xanımlar xanımı idi."

"Büllur sarayda" Nəcibə Məlikovanın artıq sənətkar kimi özünü təsdiqləmiş olduğu dövrün tamaşası idi. Ona qədər isə Nəcibə xanım teatr aləminə səs salmışdı. "Şeyx Sənan"da yaratdığı Xumar obrazı onun ən böyük yaradıcılıq uğurlarından biri idi. Bu rolu ondan əvvəl Hökumə Qurbanova ifa etmişdi. Ancaq Adil İsgəndərov bu obraza yeni nəfəs gətirmək istəyirdi. Ona görə də Nəcibə xanımla bir neçə dəfə məşq etdikdən sonra onu tamaşaya buraxmışdı. Bütün məsuliyyət Adil İsgəndərovun üzərinə düşürdü. O isə yanılmadığına əmin idi. İnanırdı ki, Nəcibə Məlikova onun istədiyi Xumarı tamaşaçıya təqdim edəcək. Aktrisa etimadı doğrultdu. Gənc Nəcibə Xumarın əsas ifaçılarından geri qalmırdı. Nəcibə Məlikova ömrünün son günlərində də köməyini teatra gələn gənclərdən əsirgəmirdi.



***Adam var bir əsrlik ömrə sahiblənir, ancaq dünyasını dəyişəndən sonra cəmicümlətanı qırxca gün yad edilir. Adam da var ömrü əbədiyyət lik qazanır - bu dünyadan köç edir, amma yaddaşlardan silinmir. Xatirələrdə yaşayır... Bax belə insanlardandır Nəcibə Məlikova- təqdimata ehtiyacı olmayan unudulmaz aktrisa...***

# NƏCİBLİK MÜCƏSSİMƏSİ

Teatrda "Mirzə Şəfi" tamaşasının məşqləri gedirdi. Həmin tamaşada Nəcibə Məlikova ilə yanaşı gənc Bəsti Cəfərova da iştirak edirdi. Bəsti Mirzə Şəfinin sevgilisini oynayırdı. Hər şey qaydasında idi. Oyun, hərəkət, danışıq... Ancaq yeriş Nəcibə xanımın xoşuna gəlmirdi. Bəstinin danışığındakı həzinlik, mülayimlik, şirinlik yerişində yox idi. İdmançı kimi gəzirdi, xanım qiyafəsi ilə bu yeriş heç üst-üstə düşmürdü. Nəcibə xanım məşqdən sonra gənc aktrisanı kənara çəkib səhvlərini ona başa saldı. "Mirzə Şəfi"tamaşasında Bəsti xanımın yaratdığı obrazın bitkin alınmasında məhz bu səhvlərin aradan qaldırılmasının böyük rolu oldu.

Nəcibə xanım son günlərinə qədər teatrda, səhnədə oldu. O, səhnəyə nəcib, mehriban insan kimi gəlmişdi. Elə o cür də bizləri tərk etdi. Odur ki, bu gün özü həyatda olmasa da xatirəsi ürəklərdə nəciblik mücəssiməsi kimi yaşamaqdadır...

Xalq artistinin ömür kitabından:

Məlikova Nəcibə Həşim qızı 1921-ci ildə Bakıda anadan olub. Azərbaycan Dövlət Teatr İnstitutunu bitirib. Səhnə fəaliyyətinə 1938-ci ildən Azərbaycan Dövlət Dram teatrından başlayıb, sonralar respublikanın müxtəlif teatrlarında, "Azərbaycanfilm" kinostudiyasında fəaliyyət göstərib. Lirik, xarakterik və komik rolların ifaçısı kimi tanınıb.

Rolları: Edilya ("Sevilya ulduzu" - Lope de Veqa), Şölə xanım, Şəhrəbanu xanım ("Lənkəran xanın vəziri", "Müsyo Jordan və dərviş Məstəli şah" - M.F.Axundov), Xumar ("Şeyx Sənan" - H.Cavid), Xuraman ("Vaqif" - S.Vurğun), Sofiya İvanovna ("Zıkovlar - M.Qorki), Safiyə xatun ("Qılınc və qələm - M.S.Ordubadi), Oqudalova("Cehizsiz qız - A.Ostrovski) və b.

"Fətəli xan", "Bakının işıqları", "Ögey ana", "Aygün", "Məhəbbət dastanı","Əhməd haradadır", "Arşın mal alan", "Qanun naminə" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**Gülfarə Kərimova**